USTAD DƏRSLƏRİ – YAZIÇILIQ

# Və ...

## Ölümdən sonrakı həyatdan qırx hekayə


## Devid İqlmen


Tərcüməçi:
Saminə Hidayətqızı


qanun nəşriyyatı

# Sum:

Forty tales from the afterlives

David Eagleman

Öldükdən sonra başımıza nə gəlir? İnsanlıq haqqında yeni nələrsə öyrənirikmi? Əslində, Tanrı bir bakteriya ölçüsündədir. O bizim varlığımızdan tamamən bixəbərdir. Yanımızda isə yalnızca xatırladığımız insanları tapa bilirik. Bəziləri bütün yaşlarına uyğun haldadır, bəziləri kredit kart qeydlərinə baxılaraq yenidən yaradılır. Bəzilərinin isə əhvalı pozulur: onlar olmaq istədiyi, lakin ola bilmədiyi fərdiyyəti ilə bir arada yaşamağa məhkumdur.

Müəllif həm komik, həm kədərli, həm də sarsıdıcı hekayələri ilə ənənəvi qavrayışları yerlə yeksan edir. Bizə özümüzü "burada və indi" görə bilən ovsunlayıcı linza bağışlayır. Dodaqları uçuqladan bir təxəyyülün kökü elmə, romantizmə və şüurumuza qədər uzanır. Bu kitab həyatın, ölümün və ölümsüzlüyün yeni tərəflərini ortaya çıxaran arzu-istəyin qarışığıdır.

**David Eagleman** **SUM:**
**Forty tales from the afterlives**
**Devid İqlmen** **VƏ...**
**Ölümdən sonrakı həyatdan qırx hekayə**
Bakı, Qanun Nəşriyyatı, 2024, 152 səh.

Janr: fiction/hekayə/spekulyativ fantastika
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 02.08.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Saminə Hidayətqızı
Redaktor: Şərif Ağayar
Korrektorlar: Ülviyyə Emin,
Ramilə İsayeva
Texniki redaktor: Asifə Əfəndiyeva
Mətn dizaynı: Günay Seyidli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-272-3

© Qanun Nəşriyyatı, 2024
© David Eagleman, 2009

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

# ÜMUMİLƏŞMƏ

Ölümdən sonra bütün təcrübələrinizi yenidən yaşayırsınız, amma bu dəfə hadisələrin gedişi fərqli olur. Aşkar bir keyfiyyət daşıyan bütün anlar bir araya toplanır.

İki ayınızı evinizin önündən keçən küçədə maşın sürərək, yeddi ayınızı sekslə məşğul olaraq keçirirsiniz. Gözlərinizi heç açmadan otuz il yatırsınız. Bütöv beş ayı ayaqyolunda oturaraq jurnal vərəqləyirsiniz.

Bütün ağrı-acılarınızı bir dəfəyə, iyirmi yeddi saatlıq çətin bir dövr içərisində yaşayırsınız. Sümüklər qırılır, maşınlar toqquşur, dəri soyulur, bəbəklər böyüyür. Bunların öhdəsindən gələndən sonra ölümdən sonrakı həyatınızın geri qalanı problemsiz keçir.

Amma bu, gününüzün heç də xoş keçəcəyi mənasına gəlməz. Altı gününüzü dırnaq kəsərək, on beş ayınızı itmiş əşyalarınızı axtararaq keçirir, on səkkiz

ay növbədə gözləyirsiniz. İki ilinizi sıxılaraq avtobus pəncərəsindən bayıra baxmaq və hava limanında oturmaqla keçirirsiniz. Bir il kitab oxuyursunuz. Gözlərinizi açır və qaşınırsınız, çünki iki yüz günlük çimmək zamanınız hələ gəlməmişdir. Öldükdən sonra iki həftənizi nə baş verəcəyini düşünərək keçirirsiniz. Bir anlıq yıxıldığınızı hiss edirsiniz. Yetmiş yeddi saatınızı fikir dolaşıqlığı ilə keçirirsiniz. Bir saat ərzində birinin adını unutduğunuzun, üç həftə ərzində səhv etdiyinizin fərqinə varırsınız. İki gününüz yalanlara həsr olunur. Altı həftə yaşıl işığın yanmasını gözləyirsiniz. Yeddi saatınızı qusaraq keçirirsiniz. On yeddi dəqiqə əvəzolunmaz bir sevinc yaşayırsınız. Üç ay pal-paltarlarınızı yuyursunuz. On beş saat imza atırsınız. İki gün ayaqqabı bağlayırsınız. Altmış yeddi gününüzü küskün qəlblə keçirirsiniz. Beş həftə yolunuzu itirmiş halda maşın sürürsünüz. Üç gün restoran hədiyyələrini hesablayırsınız. Əlli bir gün nə geyəcəyinizə qərar verirsiniz. Doqquz gün nədən danışıldığını bilirmişsiniz kimi rəftar edirsiniz. İki həftə pul sayırsınız. On səkkiz gün soyuducuya baxırsınız. Otuz dörd gününüz xiffətə məruz qalır. Altı ay reklam seyr edirsiniz. Dörd həftə ərzində vaxtınızı daha yaxşı keçirmənin bir yolu olub-olmadığı barədə düşünürsünüz. Üç il

yemək yeyirsiniz. Beş gün düymələrlə, zəncirbəndlərlə başınızı qarışdırırsınız. Dörd dəqiqə ərzində hadisələrin istiqamətini dəyişdirsəniz, nələr olacağını düşünürsünüz. Ölümdən sonrakı həyatın bir bölümündə isə sizə son dərəcə xoş əhval verən – dünyəvi həyatınıza bənzər bir şeyi xəyalınıza gətirirsiniz. Həyat detallarının asanlıqla həzm olunan kiçik parçalara ayrıldığı, dəqiqələrin axıb getdiyi, qızğın qumda hoppana-hoppana irəliləyən uşaq kimi bir hadisədən digərinə atılmağın sevincini yaşadığınız bir həyatdır bu xəyalınız.

# BƏRABƏRLƏŞDİRİCİ

Ölümdən sonrakı həyatda Tanrının, əslində, həyatın gedişatını düzgün nizamladığını kəşf edirsiniz. Digər Tanrılar kimi o da başlanğıcda kainatı yaxşı və pis insanların daxil olduğu ikili kateqoriyaya görə yaratmışdı. Çünki insanın bir çox rakursdan yaxşı, bəzi başqa rakurslardan pis niyyətli ola biləcəyini başa düşməsi uzun sürməmişdir. Bəs kimin cənnətə, kimin cəhənnəmə gedəcəyini həqiqətə uyğun necə müəyyənləşdirəcəkdi? Bir insanın eyni zamanda həm kimlərinsə pulunu mənimsəməsi, həm də xeyriyyəçi etməsinin mümkün olub-olmadığını düşünmüşdür. Bir qadın zina etmiş olsa belə, hər iki kişiyə zövq və güvən yaşada bilməzmi? Bir uşaq özü də bilmədən ailəsini dağıdacaq sirləri açıqlaya bilməzmi? Cəmiyyəti yaxşı və pis deyə iki kateqoriyaya ayırmaq hələ gənc ikən ona məntiqli görünmüş, amma həyat təcrübəsi artdıqca bu qərarlar çətinləşməyə başla-

mışdır. Yüzlərlə faktı göz önünə gətirən mürəkkəb formullar yaradılmış, nəticələri uzun kağız şəritlərin üstündə yer alan kompüter proqramları hazırlanmışdır. Amma həssas varlığı bu avtomatlaşdırmaya üsyan etmiş, kompüter ağlına batmayan bir qərar verəndə mövqeyindən istifadə edərək qəzəblə düyməni basıb söndürmüşdür. Və elə o gün savaşan iki ulusun ölülərinin dərdlərinə qulaq verir. Hər iki tərəf acılar çəkmişdi, hər iki tərəfin haqlı şikayətləri vardı, hər ikisi dəlillərini könüllü olaraq ortaya qoyur. O isə qulaqlarını bağlayır və kədərlə sızıldayır. İnsanların çoxölçülü varlıqlar olduğunu və gənc ikən verdiyi rahat qərar mexanizmləri ilə onları idarə edə bilməyəcəyini başa düşür.

Bu vəziyyət bütün Tanrılara üzüntü verməz. Əslində, biz öldükdən sonra yaratdığı varlıqlara qarşı dərin bir həssaslıq nümayiş etdirən Tanrının qarşısına çıxacağımız üçün özümüzü şanslı saymalıyıq.

Tanrı aylar boyu cənnətdəki evinin salonunda həsirotu kimi boynubükükdür və üzgün-üzgün dolanıb durur. Növbə uzandıqca uzanır. Müşavirləri, nəhayət, qərar qəbul edilməsini tövsiyə edir. Amma o bəndələrini çox sevir və onları başqasına təslim etmək fikrində deyil.

Əhvalının yaxşı olmadığı bir vaxtda məsələləri öz aralarında həll edənədək hər kəsi qeyri-müəy-

yən müddətə növbədə gözlətməyi düşünür. Amma nədənsə sonra böyük ürəyinə daha yaxşı fikir gəlir. Bu fikri həyata keçirmək üçün kifayət qədər güclüdür: hər bir insana cənnətdə bir yer bəxş edəcək. Nə də olsa, hər kəsin içində gözəl nələrsə var. İnsanın təməl xüsusiyyətlərindən biri də budur. Yeni planı ilə birlikdə mənən yüksəlir, yanaqlarına rəng gəlir. Cəhənnəm əməliyyatını başa çatdırır. Şeytanı qovur və bütün insanları yanına – cənnətə çağırır. Yeni gələnlər və köhnələr, mənfurlar və fəzilətlilər... Yeni sistemin örtüyü altında hər kəs onunla danışmaq və onu eşitmək haqqına sahib olur. Bir çoxları onu bir az çox danışan və xəyalpərəst hesab etsə də, heç kim onu ümidsizlikdə günahlandırmaz.

Yaratdığı yeni sistemin ən vacib xüsusiyyəti hər kəsi eşitməsi, diqqətli davranmasıdır. Artıq kimlərəsə atəş, kimlərəsə sazlı-sözlü səfalar layiq görülür. Ölümdən sonrakı həyat su yataqları müqabilində dəryaları, suşilər müqabilində çiy kartofları, şampanların müqabilində qaynar suları ilə tanınır. Hər kəs hər kəsin qardaşıdır və dünyada yaşamayan bu anlayış ilk dəfə gerçəkləşir: həqiqi bərabərlikdir.

Kommunistlər təşvişə düşür və əsəbiləşirlər, çünki, nəhayət, qüsursuz cəmiyyətlərinə qovuşublar. Amma bu inanmaq istəmədikləri bir Tanrının yardımı ilə baş verib. Meritokratlar sonsuza qədər bir

ovuc solçu ilə ləyaqətsiz bir sistem içində sıxışıb qaldıqları üçün inciyiblər. Mühafizəkarlar hörmətsizlik görə biləcəkləri yoxsullardan, liberallar irəli apara biləcəkləri zərərçəkənlərdən məhrum qalıblar.

Tanrı bir gecə yatağının kənarında oturub ağlamağa başlayır, çünki hər kəsin həmfikir olduğu tək mövzu cəhənnəmdə olmasıdır.

# YAXIN ƏTRAF

Ölümdən qabaq insan özündə bir dəyişiklik hiss edir, ona hər şey başqa cür görünür. Yataqdan qalxıb  dişinizi fırçalayırsınız. Arvadınızı və uşaqlarınızı öpərək işinizə gedirsiniz. Maşınlar normaldan daha azdır. Ofis binanızın qalan hissəsi tətil günü imiş kimi bir az da çox sakitlikdir. Ofisinizdə hər kəs sizi nəzakətlə qarşılayır. Nədənsə çox çeviksiniz. Tanıdığınız adamlarla rastlaşırsınız. Bir anlıq da olsa, bunun ölümdən sonrakı həyat – tanıdığınız insanlardan ibarət bir dünya olduğunu düşünürsünüz. Dünya əhalisinin bu kiçik parçası sizə yetərincə izdihamlı görünür.

Sonradan başa düşürsünüz ki, yalnız xatırladığınız insanlar buradadır. Başqa sözlə, liftdə  bir an üçün göz-gözə gəldiyiniz qadın orada ola və ya olmaya bilər. İkinci sinif müəlliminiz sinfin böyük

hissəsi ilə buradadır. Ana babanız, qohumlarınız və illərlə tanıdığınız dostlarınız da. Bütün keçmiş sevgililəriniz. Müdiriniz, baba-nənələriniz, yemək servisini hazırlayan işvəli ofisiant qız. Birlikdə yaşadığınız, yaşayışın kandarına gəldiyiniz və birlikdə yaşamağı arzuladıqlarınız. Elə, ya da belə ünsiyyətdə olduğunuz minlərlə insanla mənalı vaxt keçirmək, zəifləyən bağları gücləndirmək, həyatınızdan çıxanlarla aranı kəsmək üçün möhtəşəm fürsət əldə edirsiniz.

Bu şəkildə keçən bir neçə həftənin ardınca özünüzü tərk edilmiş kimi hiss etməyə başlayırsınız.

Yoldaşlarınızla ucsuz-bucaqsız rahat parklarda gəzərkən nələrin fərqli olduğunu düşünürsünüz. Parkın boş skamyalarını şərəfləndirən əcnəbilər yoxdur. Ördəklərə yem atan və qəhqəhə ilə sizi də gülümsəməyə vadar edən tanımadığınız ailələr yoxdur. Küçəyə addım atarkən heç bir yerdə tünlük olmadığını, işçilərlə dolub-daşan binaların, uzaqdakı kəndlərin, yaşamaq ümidini itirən xəstələrin və onların sızıltıları ilə dolu 24/7 işləyən xəstəxanaların, evlərinə getməyə tələsən sərnişinlər ilə gecənin içinə doğru irəliləyən qatarların olmadığını hiss edirsiniz. Ətrafınızda çox az yad adam var.

Öyrəşmədiyiniz hər şeyi düşünməyə başlayırsınız. Şin istehsal etmək üçün kauçukun necə vulka-

nizə ediləcəyini bilmədiyinizi hiss edirsiniz. O fabriklər indi bomboşdur. Silikon yığmağı, atmosfer xaricinə raket göndərməyi, zeytun tumu çıxarmağı, ya da dəmiryolu döşəməyi heç öyrənməmişsiniz. İndi isə o sənaye dağılmış vəziyyətdədir.

İtmiş izdihamlar sizdə yalnızlıq duyğusu oyadır. Tanış ola biləcəyiniz insanları düşünərək gileylənməyə başlayırsınız, amma kimsə sizə nə qulaq verir, nə də diqqət göstərir. Çünki bütün bunlar həyatda yaşayarkən etdiyiniz seçimin nəticəsidir.

# ÇEŞİDLƏR PİLLƏSİNDƏ ENİŞ

Ölümdən sonra sizə gözəl bir fürsət verilir. Sonrakı həyatınızda nə olmaq istədiyinizi seçə bilirsiniz. Qarşı cinsin bir üzvü olmaq istəyirsinizmi? Kral ailəsində doğulmaq, sonsuz bilgilərə sahib bir filosof, zəfər dolu döyüşlərə qatılan bir əsgər olmaq istəyirsinizmi?

Kim bilir, bəlkə də, çox ağır keçən bir həyatdan sonra döndünüz buraya. Bəlkə, sizi əhatə edən böyük məsuliyyət hissinin altında əzildiniz. İndi tək bir şeyin – sadəliyin həsrəti içindəsiniz. Başa düşüləndir. Bundan sonrakı səfərdə bir at olmağı seçirsiniz. Sadə bir həyatın sevincinə qibtə edirsiniz: yamyaşıl çayırlıqda otlayaraq keçirdiyiniz ikindilər, vücudunuzun yaraşığı, əzələlərinizin görünüşü, ağır-ağır yellənən quyruğunuzun və ya qarlı düzənliklərlə ge-

dərkən burun dəliklərinizdən çıxan buxarın verdiyi rahatlıq...

Qərarınızı elan edirsiniz. Ovsunlar oxunur. Bir dəyənək havada yellənir və bədəninizin at bədəninə çevrilməsi başlayır. Əzələləriniz şişir, bədəninizdən sizi bir adyal kimi soyuqdan qoruyacaq qalın tüklər qalxır. Boynunuzun qalınlaşması və uzanması sizə normal görünür. Şahdamarınızın diametri genişlənir, barmaqlarınız halqalanır, dizləriniz sərtləşir, ombalarınız güclənir və skeletiniz yeni quruluşuna görə uzanır. Beyninizdə dəyişikliklər gedir. Beyinciyiniz böyüyür və ağlınız kiçilir, hormonlar insanı ata döndərir, neyronlar yenidən düzəlir, sinapslar ayrılır və ata görə yenidən birləşir. At olmağa dair xəyallarınız uzaqlardan sizə doğru dördnala çapır. İnsan əlaqələrinə və insan davranışına aid xüsusiyyətləriniz əriyib yox olur. Hətta insani düşünmə tərzi sizdən tamamilə uzaqlaşmağa başlayır.

Bir anlığa beyninizə hakim kəsilən suallar barədə düşünməyə başlayırsınız. İlk başdakı arzunuzu ata döndüyünüz qədər unudursunuz. At olmaqla maraqlanan bir insanın necəliyini unudursunuz.

Bu bərraq an uzun sürmür, amma bir vəzifəni yerinə yetirir: başlanğıc nöqtəsini bilmədən finiş nöqtəsini təqdir etmənin, ya da alternativləri anla-